*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 317-325*

https://doi.org/10.62837/2025.6.317

UOT: 82+02
**MƏRCAN RƏCƏBLI**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: marjan.rajabli@mail.ru*

# ABBASQULU AĞA BAKIXANOV İRSİNİN BİBLİOMETRİK TƏDQİQİ

**Xülasə**

Məqalə xalqımızın dərin ensiklopedik biliyə malik mütəfəkkir şairi və maarifçilik dövrünün parlaq nümayəndəsi, 2024-cü ildə 230 illik yubileyi tamam olan Abbasqulu ağa Bakıxanovun zəngin irsinin bibliometrik tədqiqinə həsr olunub. Bu araşdırmanın məqsədi Azərbaycanda və xarici ölkələrdə milli və əcnəbi dillərdə A.Bakıxanova dair dərc edilmiş nəşrlərin inkişaf dinamikasının müəyyən edilməsidir. Burada böyük şəxsiyyətin ədəbi və fəlsəfi dünyagörüşünü əks etdirən çoxşaxəli yaradıcılığının tədqiqi və təbliği məqsədilə indiyədək nəşr edilmiş informasiya resurslarının əhəmiyyəti sənədşünaslıq aspektindən müqayisəli şəkildə təhlilə cəlb edilib. Azərbaycan Milli Kitabxanasının fondunda mühafizə olunan şairin əsərlərinin, haqqında yazılmış elmi, elmi-kütləvi və soraq-informasiya xarakterli sənədlərin xronoloji və məzmun cəhətləri ətraflı şərh olunub. Bu resurslardan istifadənin informasiya tələbatçılarının elmi-tədqiqat fəaliyyətinə təsiri məsələləri araşdırılıb. Onun əsərlərinin kitabxanalarda, eləcə də, asudə vaxtın səmərəli təşkilində gənclərin mənəvi və intellektual potensialının zənginləşməsindəki rolu ilk dəfədir ki, bibliometrik tədqiqat üsulları vasitəsilə əsaslandırılıb. Müxtəlif statistik rəqəm göstəricilərinə əsasən A.Bakıxanov irsinə dair çap və rəqəmsal sənəd-informasiya ehtiyatlarının daha çox istifadəçi üçün əlçatanlığının təmin olunmasının əhəmiyyəti vurğulanıb, müvafiq təklif və tövsiyələr irəli sürülüb.

***Açar sözlər:*** *ədəbiyyatşünaslıq, fəlsəfi fikir, etik prinsiplər, maarifçilik, çap məhsulları, kitabxana fondu, elektron nəşrlər*

## Giriş

*XIX yüzilliyin ilk yarısında Azərbaycanda xalqın elmi-intellektual və dünyəvi düşüncə tərzinin formalaşması və zənginləşməsinə xidmət edən maarifçilik ideyalarının inkişafında öz yaradıcılığı ilə seçilən, həmçinin bu istiqamətdə mühüm xidmətləri olan şəxsiyyətlərdən biri də Abbasqulu ağa Bakıxanovdur (1794-1847). Xalqımızın tarixinin ictimai və mədəni inkişaf prosesində özünəməxsus mövqeyə malik stedadlı alim, mütəfəkkir və şair A.Bakıxanovun dəyərli və çoxtərəfli irsinin Azərbaycan elmi və mədəniyyətinə gətirdiyi mühüm yeniliklər özünəməxsus cəhətləri ilə fərqlənir. Onun məşhur "Qanuni-Qüdsi", "Təhzibi-əxlaq", "Nəsihətnamə",*

*"Eynəl-mizan", "Gülüstani-İrəm" kimi qiymətli əsərləri Azərbaycanın humanitar və ictimai elm tarixində müxtəlif tədqiqatçılar tərəfindən təhlilə cəlb edilmişdir. Dil, tarix, məntiq, pedaqogika, psixologiya və digər elmlərə həsr olunmuş əsərlərinin tədqiqinə həsr edilmiş bu araşdırmaların nəticələri təsdiq edir ki, A.Bakıxanov hərcəhətli bir mütəfəkkir olmuşdur. "O, xalqın maarifləndirilməsi məqsədilə təkcə əsərlər yazmaqla kifayətlənməmiş, dünya xalqlarının müxtəlif dillərində (ərəb, fars, türk və rus) olan əhəmiyyətli kitabların doğma dilə tərcüməsi ilə də məşğul olmuşdur" [3, s.49]. Bu əsərlərin cəmiyyət üçün faydalı olmasını nəzərə alaraq onların təbliğinə də xüsusi önəm vermişdir. Şübhəsiz ki, müasir dövrdə bir çox klassik şair və mütəfəkkirlərin, o cümlədən A.Bakıxanovun zəngin ədəbi-bədii və fəlsəfi irsinin öyrənilməsi, dəyərli fikirlərin meydana çıxarılması, ətraflı şərh edilməsi, onlardan gənc nəslin mənəvi və estetik tərbiyəsində istifadə olunması vacib aktuallıq kəsb edir. Belə görkəmli şəxsiyyətlərin irsinin araşdırılmasında onların kitabxanaların fondlarında saxlanılan əsərləri ilə yanaşı, yaradıcılıqlarına həsr olunmuş müxtəlif elmi və elmi-kütləvi nəşrləri öyrənmək də tədqiqatçılar üçün mühüm mənbələrdir [2; 4; 5; 6]. Bu tədqiqatlardan istifadənin zəruriliyi əldə olunan faktların tədqiq edilən şəxsin özü, yaradıcılığı, maraq dairəsi, elmi dünyagörüşü haqqında, təkcə araşdırmaçı üçün deyil, həm də bu sahədə informasiya tələbatçıları üçün maraqlı məlumatlar verməsindədir. Bu mənada, hazırki tədqiqat işində 1830-2023-cü illəri əhatə edən dövrdə A.Bakıxanovla bağlı çapdan çıxmış 224 adda mənbənin, şairin fəlsəfi-etik irsinin elmi araşdırılması və təbliğini yüksək keyfiyyətlə təşkil etməyə imkan verməsi öyrənilib.*

Abbasqulu ağa Bakıxanov irsinin bibliometrik tədqiqi prosesi ölkəmizin ən iri mədəniyyət müəssisələrindən biri olan Azərbaycan Milli Kitabxanasının (bundan sonra – AMK) fondu əsasında həyata keçirilmişdir. Çünki "Kitabxana işi haqqında" qanunun 15-ci maddəsində qeyd olunmuş tələblərə uyğun olaraq ölkəmizdə fəaliyyət göstərən bütün dövlət nəşriyyatları ilə yanaşı, özəl poliqrafiya müəssisələri tərəfindən buraxılan çap məhsullarının 3 pulsuz məcburi nüsxəsi, məhz AMK-nın fondunda komplektləşdirilir. Bu mühüm faktı nəzərə alaraq, araşdırma AMK-nın avtomatlaşdırılmış sənəd-informasiya axtarış sistemi olan (http://ek.anl.az), aşağıda şəkli və mobil qurğu vasitəsilə operativ daxil olmaq üçün QR-kodu göstərilən elektron kataloquna əsasən aparılmışdır [1].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 317-325*
*ISSN 2224-9257*




Apardığımız tədqiqat göstərir ki, AMK-nın elektron kataloqu mövzuyla bağlı 224 adda sənəd-informasiya ehtiyatı haqqında biblioqrafik verilənlərdən ibarətdir. Qeyd edək ki, bu sənəd resurslarına həm ayrı-ayrı müəlliflərin A.Bakıxanov haqqında yazdıqları, həm də mütəfəkkirin müəllifi olduğu əsərlər daxildir. Bu sənədlərin bibliometrik təhlilində onların müvafiq təsnifat əsasında öyrənilməsi olduqca vacib məsələdir. Çünki təsnifat idrak metodlarından biridir və onsuz sənədlərin müxtəlif növ çoxluğunu araşdırmaq və sistemləşdirmək, müxtəlif əlamətlər üzrə sənəd növlərini bir-birindən fərqləndirmək qeyri-mümkündür. Bu baxımdan, düzgün tərtib edilmiş kompleks təsnifat, bizə mövzu üzrə sənədlərin qanunauyğun inkişafını əks etdirməyə və onlar arasında əlaqələri aşkarlamağa imkan verir. Həmçinin, mövzuya dair sənədlərin təsnifləşdirilməsi həmin sənədlərin hər bir növünün özünəməxsus xüsusiyyətlərini müəyyən edir. Ona görə də, bibliometrik tədqiqata cəlb etdiyimiz sənədlərin müxtəlif əlamətlər üzrə növünü təyin etmək, məzmun və formaca təhlilini vermək mühüm əhəmiyyətə malikdir.

Sənədlərin təsnifləşdirilməsinin əsasında duran vacib əlamətləri – onların informasiya tərkibi və xarici mühitdə mövcudluq şərtləri daxildir. Sənədlərin təsnifatını onların təhlil aspektinə uyğun olaraq faset (fransız dilində “facette” – həd, sərhəd), yəni sənədlərin müəyyən vacib əlamət üzrə siyahısı əsasında aparılmasını məqsədəuyğun hesab edirik. Bu əlamətlərə daxildir: sənədin işarə vasitələri; başa düşmə (dərketmə) kanalları; yayılma dərəcəsi; sənədləşdirmə üsulları; informasiyanın ümumiləşdirmə səviyyəsi; buraxılması dövriliyi; coğrafi mənşəyi.

Qeyd olunan cəhətləri nəzərə almadan təhlilə keçmədən öncə, tarixi-xronoloji baxımdan (10 illik bölgü əsasında) Abbasqulu ağa Bakıxanov irsinə dair AMK-nın fondlarında mühafizə edilən nəşrlərin statistik göstəriciləri təqdim edək: 1830-1839-cu illər (1 nəşr), 1940-1949-cu illər (1 nəşr), 1950-1959-cu illər (4 nəşr), 1960-1969-cu illər (3 nəşr), 1970-1979-cu illər (6 nəşr), 1980-1989-cu illər (7 nəşr), 1990-1999-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 317-325*

cu illər (16 nəşr), 2000-2009-cu illər (28 nəşr), 2010-2019-cu illər (137 nəşr), 2020-2023-cü illər (21 nəşr). Qeyd olunan rəqəmlərdə göstərir ki, mövzunun işlənməsi üzrə ən məhsuldar mərhələ 2010-2019-cu illəri əhatə edən dövrdür. Bu dövrdə ədibin anadan olmasının 220 illik yubileyinə təsadüf edən 2014-cü ildə Prezident İlham Əliyevin bununla əlaqədar imzaladığı sərəncamdan irəli gələrək 55 adda informasiya resursu nəşr olunması təbiidir. Həmin sənədlərdə məqalələrin sayı 36, kitabların sayı isə 19 olması diqqəti cəlb edir.

Sənədin işarə vasitələrinə əsasən mövzu üzrə AMK-nın fondunda 209 mətni nəşr, 4 ikonoqrafik nəşr, 8 ideoqrafik nəşr, 3 kompleks nəşr mövcuddur. Məsələn, ideoqrafik sənədlərə daxil olan not nəşrlərində A.Bakıxanovun sözlərinə və onun haqqında bəstələnmiş musiqi əsərləri, xüsusilə maraq doğurur. Başa düşmə (dərketmə) kanallarına görə isə sənədlərdən  215-i vizual, 9-u isə audiovizual nəşrdir. Fondda yayılma dərəcəsinə görə 220 dərc edilən, 4 dərc edilməyən sənəd oxucuların istifadəsinə təqdim olunur. Qeyd edək ki, dərc edilməyən sənədlərə A.Bakıxanovun yaradıcılığının müxtəlif aspektlərinə həsr olunmuş alimlik dərəcəsi almaq üçün yazılmış 3 dissertasiya və 1 avtoreferat daxildir. Bu dissertasiyaların müəllifi, mövzuları və biblioqrafik verilənləri haqqında aşağıdakı şəkildə məlumat almaq mümkündür [1]:


1. **Abasqulu Ağa Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili [Mətn] : psixol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 19.00.05 /L. Ə. Verdiyeva ; Azərb. Resp. Təhsil Nazirliyi, AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu.**
*Verdiyeva, Ləman Əşrəf qızı. psixol. üzrə fəls. d-ru*
**Bib-ID** vtls000492201
**Buraxılış məlumatları** Bakı: 2011.
**Fiziki xüsusiyyətləri** 129 s.:
**Digər məlumatlar** Elektron resursdan kitabxananın Dissertasiya zalında lokal şəbəkədə istifadə etmək olar.
**istifadəsi mümkün olan nüsxələrin sayı 1**
ANL KS Dis.f **(1 nüsxə)**
Qovluğa əlavə etmək

2. **A. Bakıxanovun fəlsəfi-etik irsi və müasirlik [Mətn] : fəls. e. n. a. dər. al. üçün təq. ed. dis.: 09.00.03 /Ş. M. İbrahimov ; AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İn-tu.**
*İbrahimov, Şikar Mürşüd oğlu.*
**Bib-ID** vtls000081428
**Buraxılış məlumatları** Bakı: 2008.
**Fiziki xüsusiyyətləri** 125 s.:
**Digər məlumatlar** Elektron resursdan kitabxananın Dissertasiya zalında lokal şəbəkədə istifadə etmək olar.
**istifadəsi mümkün olan nüsxələrin sayı 1**
ANL KS Dis.f **(1 nüsxə)**
Qovluğa əlavə etmək

3. **Mollanəsrəddinçilərin fəlsəfi dünyagörüşü və müasirlik [Mətn] : Fəlsəfə üzrə elmlər d-ru e. dər. al. üçün təq. ed. dis. : 7207.01 /Y. H. Hüseynov ; Azərb. Resp. Təhsil Nazirliyi, Naxçıvan Dövlət Un-ti.**
*Hüseynov, Yusif Hüseyn oğlu. fəls. üzrə fəls. d-ru, dos.*
**Bib-ID** vtls000851015
**Buraxılış məlumatları** Bakı: 2018.
**Fiziki xüsusiyyətləri** 307 s.:
**Digər məlumatlar** Elektron resursdan kitabxananın Dissertasiya zalında lokal şəbəkədə istifadə etmək olar.
**istifadəsi mümkün olan nüsxələrin sayı 1**
ANL KS Dis.f **(1 nüsxə)**

Təqdim olunan şəkildən göründüyü kimi, müdafiə olunmuş dissertasiyalar müvafiq olaraq 2008, 2011 və 2018-ci illərdə Bakı və Naxçıvan şəhərlərində müdafiə edilmişdir. Bu dərc olunmayan sənədlərdən 2 tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Sosialogiya İnstitutunda, 1 dissertasiya isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət

Universitetində yerinə yetirilmişdir. Onlardan 1-i psixologiya, 1-i fəlsəfə üzrə fəlsəfə doktoru, 1-i isə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün uğurla müdafiə olunmuşdur. Mövzu ilə bağlı AMK-nın sənəd-informasiya resurslarında mövcud olan avtoreferat isə L.Vəliyevanın 2013-cü ildə psixologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi "Abasqulu Ağa Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili" adlı dissertasiyanın müdafiəsi məqsədilə tərtib edilmişdir. Qeyd edək ki, həmin tədqiqat işində A.Bakıxanovun öz əsərlərində irəli sürdüyü ideya və fikirlərin müasir dövrün sosial psixologiyası baxımından aktuallığı, onu yeni elmi müddəalarla zənginləşdirməsi, milli mənlik şüurunun formalaşmasına güclü təsiri kimi mühüm məsələlər araşdırılmışdır.

Sənədləşdirmə üsullarına görə təhlilə cəlb etdiyimiz nəşrlərdən 194-ü çap, 30-u isə elektron informasiya mənbəyidir. İnformasiyanın ümumiləşdirmə səviyyəsi əlaməti üzrə sənədlərin təsnifat bölgüsünə daxildir: 218 adda birinci növ sənəd (rəsmi, elmi, tədris və ədəbi-bədii ), 6 adda ikinci növ sənəd (biblioqrafik və icmal xarakterli nəşr). Birinci növ sənədlər mövzu ilə bağlı müxtəlif məsələlərin öyrənilməsi, tədqiqi, işlənməsi və s. nəticəsində yaradılan və öz məzmunu etibarilə orijinal olan informasiya daşıyıcılarıdır. İkinci növ sənədlər isə A.Bakıxanovla bağlı bir və ya bir neçə birinci növ sənədin analitik-sintetik emalı nəticəsində yaradılmışdır. Məsələn, 1977-ci ildə tərtib olunmuş ilk və hələlik yeganə olan "Abbasqulu ağa Bakıxanov (1794-1847): biblioqrafik ədəbiyyat göstəricisi" adlı kitab belə nəşrlərdən biridir. Burada diqqəti cəlb edən və təəssüf doğuran məqamlardan biri də, böyük mütəfəkkir A.Bakıxanov haqqında uzun müddətdir yeni biblioqrafik göstəricinin hazırlanmamış olmasıdır. Ümid edirik ki, bu il şairin 230 illik yubileyi münasibətilə belə bir fundamental biblioqrafik vəsait tərtib olunaraq oxucuların istifadəsinə veriləcəkdir. Çünki böyüyə hörmət, ata-ananı sevmək, onların itaətindən çıxmamaq, qohum-əqrəbaya mehribanlıq, dostluqda sədaqət, işdə və haqq-hesabda düzlük, doğru danışmağa adət etmək, özünə rəva görməyən işi başqasına layiq görməmək, səbirli və mərd olmaq, zəhməti sevmək, tənbəlliyə nifrət, elm və təhsilə həvəs və s. kimi əxlaqi keyfiyyətləri öz əsərlərində təcəssüm etdirən mütəfəkkirin yaradıcılığının təbliği və tədqiqində bu cür biblioqrafik mənbənin olması, olduqca vacib məsələdir.

Buraxılması dövriliyi baxımından mövzuya dair 113 jurnal məqaləsi, 111 kitab AMK-nın fondunda saxlanılır. Bu sənədlərdən 221-i Azərbaycan dilində, 2-i rus dilində, 1-i isə fars dilində, coğrafi mənşəyinə görə Azərbaycanda 221, Gürcüstanda 2, İranda 1 sənəd-informasiya resursu nəşr edilmişdir. Kitablardan xronoloji baxımdan ilk çap olunanı 1831-ci ildə A.Bakıxanovun Tiflisdə (Tbilisi) işıq üzü görmüş "Qanuni-Qüdsi" əsəridir. Mətni ərəb qrafikasında fars dilində olan nəşri həm ənənəvi, həm də elektron variantda oxumaq olar. Mövzu ilə bağlı Azərbaycan dilində çap edilmiş ilk sənəd 1949-cu ildə Bakıda buraxılan "Görkəmli Azərbaycan alimi Abbasqulu ağa Bakıxanov" adlı kitabdır. Tədqiqat mövzusunda, hələlik nəşr

edilmiş sonuncu informasiya resursu alimin 2023-cü ildə Bakıda "Mücrü" nəşriyyatında işıq üzü görmüş "Gülüstani-İrəm: tarix olduğu kimi" adlı 284 səhifəlik kitabdır.

Xüsusi vurğulamaq yerinə düşər ki, mövzu ilə əlaqədar çapdan çıxmış ən maraqlı nəşrlərdən biri "Abbasqulu ağa Bakıxanovun şəxsi arxivinin təsviri" adlı kitabdır [5]. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun (bundan sonra – institut) əməkdaşı İradə Vəzirovanın tərtib etdiyi və ön sözün müəllifi olduğu 200 səhifə həcmli bu dəyərli mənbə 2017-ci ildə Bakıda "Elm və təhsil" nəşriyyatında çap edilmişdir. Redaktoru filologiya üzrə fəlsəfə doktoru Əkrəm Bağırov, rəyçisi filologiya elmləri doktoru Paşa Kərimov olan bu informasiya resursunda maarifçi, şair A.Bakıxanovun institutun fondunda mühafizə edilən şəxsi arxiv materialları ilk dəfədir ki, təsvir olunmuşdur. Nəşrdən ənənəvi formada AMK-da və elektron variantda onun rəsmi saytında yerləşən rəqəmsal kitabxanada tanış olmaq mümkündür.

Kitabda institutun fondunda 1934-cü ildən toplanmağa başlanmış alimin şəxsi arxiv sənədlərinə daxil olan 57 saxlama vahidi təsvir edilmək üçün tədqiqata cəlb olunmuşdur. Bu sənədlər arasında İmperator Dəftərxanası və Qafqaz Canişininin təliqələri, ədibin məktublarının fotosurətləri, ərizələr, "İş" qovluqları, onunla bağlı fotoşəkillər, yaradıcılığını araşdıran tədqiqatçıların yazışmaları, müasirlərinin xatirələri, Az.SSR EA "Xəbərlər"inin böyük mütəfəkkirin ölümünün 100 illik yubileyinə həsr olunmuş xüsusi buraxılışı və digər əhəmiyyətli materiallar haqqında məlumatlar geniş oxucu auditoriyasına təqdim edilir. Tərtibçi kitabda göstərir: "Arxivdə yer almış materialların içində 100-dən artıq məktub, 100-dən çox təliqə, 4 arxiv "İş" qovluğu, SSRİ və Az.SSR Elmlər Akademiyasının "Xəbərlər"i (1935-ci, 1943-cü və 1946-cı illərdə nəşr olunmuş 3 nüsxəsi), "Müasirləri Bakıxanov haqqında" adlı kitabın makina çapı (141 v.), 3 müqavilə, 2 teleqram, 3 raport, 23 elmi məqalə, 31 ədəd məktub zərfi, 5 şəkil və digər sənədlər mühafizə olunur" [5, s.4].

Burada diqqəti cəlb edən məqamlardan biri də, xronoloji baxımdan 1819-cu ilin sonundan 1846-ci ilə qədər A.Bakıxanovun həyatı, hərbi-diplomatik xidməti, elmi yaradıcılığı və həmin dövrdə baş verən müxtəlif tarixi hadisələrə işıq salan materialların əksəriyyətinin 1934-1971-ci illər arasında əldə olunmasıdır. Bu sənədlərin Moskva, Sankt-Peterburq, Tbilisi, Odessa şəhərləri, Gürcüstan Baş Arxiv İdarəsi, Rusiyanın Dövlət arxivləri və bəzi muzeylərdən Azərbaycana gətirilməsində XIX yüzil Qafqaz ədəbi mühitinin məşhur tədqiqatçısı İvan Konstantinoviç Yenikolopovun xidmətləri xeyli maraq doğurur. Bütün bunlar, toplanmış materialların coğrafi anlamda geniş bir ərazini əhatə etdiyini göstərir. Sənədlər arasında məktublar, xüsusilə seçilir və onlar, əsasən A.Bakıxanovun həyat yolu və yaradıcılığı, Bakı xanlığının yaranma tarixinin tədqiqi ilə məşğul olan araşdırmaçılar, eləcə də İ.Yenikolopov, H.Hüseynov, S.Rüstəmov, Ə.Əhmədov və başqaları

tərəfindən yazılmışdır. Nümunə üçün aşağıda məktublardan birinin təsvirinə nəzər yetirək:

1829-cu il 12 dekabr tarixində İvan Paskeviç-Yerivanski Rusiyanın Xarici İşlər Naziri qraf K.V.Nesselrodeyə fransız dilində bənövşəyi mürəkkəblə yazdığı məktub, hansı ki 30 dekabr 1829-cu ildə qarşı tərəfdən qəbul edilmişdir. Sənəd açıq göy rəngli cizgiləri olan dəftərxana kağızında tərtib olunmuşdur. Yuxarı sağ küncdən axıracan yazının üstündən nazik kağız yapışdırılaraq bərpa edilmiş kağız üzərində qırmızı rəngli şaquli xəttlər çəkilmişdir. Məktubda A.Bakıxanovun xidməti haqqında məlumat verilərək, onun savadı və bacarığı yüksək qiymətləndirilmiş, fars dilinin qrammatikasını tərtib etdiyi xəbər verilmişdir.

Qeyd etdiyimiz mühüm cəhətləri nəzərə alaraq əminliklə bildirmək mümkündür ki, çoxillik tədqiqat işinin nəticəsi olaraq ərsəyə gətirilmiş və institutun Elmiş Şurasının qərarı ilə nəşr olunmuş bu kitabda XIX əsr Azərbaycan mədəniyyətinin görkəmli siması A.Bakıxanovun həyatı, hərbi-diplomatik xidməti və zəngin yaradıcılıq yolu barədə olduqca dəyərli bilgilər əldə etmək olar.

Beləliklə, tərəqqipərvər ziyalı A.Bakıxanovun ensiklopedik zəkasının güzgüsü olan zəngin irsi deməyə əsas verir ki, o, xalqı gerilikdən, cəhalətdən və köləlikdən xilas etmək yollarını haqlı olaraq, məhz maarifçilik ideyaları və qabaqcıl mədəniyyətin təbliğində görmüşdür. Xalqı cəhalət, avamlıq və savadsızlıq bəlalarından qurtarmaq üçün elmə, maarifə və kitaba üz tutmağa sövq etmiş və xalqın maarifləndirilməsi üçün, ilk növbədə məktəblərin açılması və dərs kitablarının tərtib edilməsinin vacibliyini vurğulamışdır. Onun bütün yaradıcılığının əsas qayəsində dünyanın bütünlüklə dərk edilməli olduğu ideyası dayanır. Bu məqsədinə çatmaq üçün insanı inad və səbrlə kitabları mütaliə etməyə və elmə sahib olmağa çağıran böyük şəxsiyyətin irsinə dair yeni sənəd-informasiya resurslarının yaradılmasına və təbliğinə indi həmişəkindən daha çox ehtiyac vardır.

**Nəticə**

*Bibliometrik tədqiqatımıza yekun vuraraq qeyd edək ki, Sovet hakimiyyəti illərində müxtəlif bəhanələrlə geniş elmi-nəzəri və ədəbi tədqiqatdan kənar saxlanılmış A.Bakıxanovun irsi, məhz müstəqilliymizin bərpasından sonrakı dönəmdə daha əhatəli araşdırma obyektinə çevrilmişdir. Əsərlərində gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi normaları tərbiyələndirmək, şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, düşkün ehtiraslardan özünü saxlamaq, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifi hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət və s.-ni tərənnüm edən böyük mütəfəkkirin zəngin yaradıcılığının təbliği, bu gün olduqca mühüm aktuallıq kəsb edir. Onun çoxcəhətli intellektual fəaliyyətinin nəticəsi olan əsərlərində irəli sürdüyü humanist prinsiplərin dərindən öyrənilməsi istiqamətində tədqiqatların*

*aparılması da vacib məqamlardan birini təşkil edir. Ədibin onun insanlığa, vətənə və xalqına olan məhəbbəti, maarifçi və demokratik dünyagörüşü ilə bağlı olan əxlaq nəzəriyyəsinin daha dərindən öyrənilməsi məqsədilə aparılan tədqiqatların sənəd-informasiya təminatının müasir tələbələrə cavab verəcək şəkildə təşkili də olduqca əhəmiyyətli nüansdır. Bu baxımdan, Azərbaycan Milli Kitabxanasının qeyd olunan istiqamətdə çoxfunksiyalı fəaliyyətini təqdirəlayiq hesab etmək olar.*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Milli Kitabxanasının rəsmi veb saytı: [Elektron resurs]. – URL: https://www.millikitabxana.az/
2. Əhmədalılar, T. Tarixçi şair, maarifçi məmur: Abbasqulu ağa Bakıxanov – 220// Mədəniyyət. – 2014, – 20 iyun. – s. 10.
3. Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: dərslik: [2 hissədə]/ A.Xələfov; red.: T.Quliyev, K.Aslan. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – I hissə. – 2004. – 328 s.
4. Məmmədov, T. Abasqulu Ağa Bakıxanov: pedaqoji əsərləri/ T.Məmmədov. – Bakı: Mütərcim, – 2014. – 98 s.
5. Verdiyeva, Z. Azərbaycanın böyük maarifçi şairi – Abbasqulu Ağa Bakıxanov// Səs. – 2014. – 12 iyun. – s.13.
6. Vəzirova, İ. Abbasqulu ağa Bakıxanovun şəxsi arxivinin təsviri/ İ.Vəzirova; red. Ə.Bağırov; rəy. P.Kərimov. – Bakı: Elm və təhsil, – 2017. – 200 s.

**Marjan Rajabli**

**Bibliometric study of the heritage of Abbasgulu agha Bakikhanov**

The article is devoted to the bibliometric study of the rich heritage of Abbasgulu agha Bakikhanov, a thinker poet with deep encyclopedic knowledge and a bright representative of the Enlightenment era, whose 230th anniversary has been completed this year. The goal of this study is to determine the development dynamics of publications about A.Bakikhanov in national and foreign languages in Azerbaijan and abroad. Here, the importance of the information resources published so far for the purpose of research and promotion of the creative work reflecting the literary and philosophical worldview of the great personality is involved in a comparative analysis from the aspect of documentary studies. The chronological and content aspects of the poet's works preserved in the collection of the National Library of Azerbaijan, the scientific, scientific-mass, questioning document resources written about him have been explained in detail. The impact of the use of these resources on

the scientific-research activity of information users has been investigated. The role of his works in enriching the spiritual and intellectual potential of young people in libraries, as well as in the efficient organization of leisure time, was justified for the first time through bibliometric research methods.

***Key words:*** *literary studies, philosophical thought, ethical principles, enlightenment, printed products, library stock, electronic publications*

**Марджан Раджабли**

**Библиометрическое исследование наследия Аббасгулу аги Бакиханова**

Статья посвящена библиометрическому исследованию богатого наследия Аббасгулу аги Бакиханова – поэта-мыслителя с глубокими энциклопедическими знаниями, яркого представителя эпохи Просвещения, 230-летие которого отмечается в этом году. Цель исследования – выявить динамику развития публикаций об А.Бакиханове на национальных и иностранных языках в Азербайджане и за рубежом. В статье, в сравнительно-документологическом аспекте, рассматривается значение опубликованных к настоящему времени информационных ресурсов для изучения и популяризации творчества, отражающего литературно-философское мировоззрение великой личности. Подробно рассматриваются хронологические и содержательные аспекты произведений поэта, хранящихся в фондах Национальной библиотеки Азербайджана, научные, научно-массовые и исследовательские документальные источники, посвященные ему. Исследовано влияние использования этих ресурсов на научно-исследовательскую деятельность пользователей информации. Впервые с помощью библиометрических методов исследования обоснована роль его произведений в обогащении духовного и интеллектуального потенциала молодёжи в библиотеках, а также в эффективной организации досуга.

***Ключевые слова:*** *литературоведение, философская мысль, этические принципы, просвещение, печатная продукция, библиотечный фонд, электронные издания*

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Nigar Babaxanova** tərəfindən çapa tövsiyə olunmuşdur.